

Ələsgər ƏLİOĞLU

# İKİ HEKAYƏ

## "TFU!.."

*("Nizibala Doymazlı" serialından)*

Nizibala Doymazlı dodaqlarını çeynəyə-çeynəyə əlindəki məktubu dönə-dönə nəzərdən keçirdi. Stola bərkidilmiş düyməni baş barmağı ilə basdı.Köməkçi bir göz qırpımında özünü içəri salıb əmrə müntəzir bir görkəm aldı.

Nizibala başını qaldırmadan öz tapşırığını verdi:

- O Qüdrətdir,nədir,onunla əlaqə saxla.Təcili bura gəlsin,qəbuluma!..

Günortaya yaxın Qüdrət kişi Nizibalanın kabineti qarşısında göründü.Köməkçinin işarəsindən sonra o,kabinetə daxil oldu.Nizibala üz-gözünü turşudub,verilən salamı da almadan birbaşa mətləbə keçdi:

-Qüdrət kişi, bu nədir yazmısan?..

-Nə yazmışam ki? Yoxsa səhv-zad eləmişəm?..

-Əlbəttə,yazırsan ki, "Dost darvazası" restoranı mənimdir...

-Məgər sizin deyil?

-Xeyr,mənim deyil,bacarırsan sübut elə,başqasının adınadır.

-Yəqin ki,deyəcəksiniz Dördyoldakı mebel mağazası da sizin deyil...

-O da mənim deyil...Bir maraqlan gör kimindir də?

-Cənab Doymazlı,o qırx hektarlıq nar bağı da sizin deyil?

-Necə başa düşməz adamsan,mən dəliyəm ki,adıma da nar bağı olsun?

-Yəqin deyəcəksiniz ki, o özəl avtovağzal da,böyründəki o bina da sizin deyil!..

Nizibala tamam hövsələdən çıxdı və özündən asılı olmayaraq qəzəbli bir görkəm alıb hikkəylə əlini stola çırpdı:

-Qüdrət kişi,heç cızığından çıxıb-eləmə.İstəyirsən get əlindən gələni beş qaba çək...Mənim adıma bu rayonda nə bir obyekt var,nə də torpaq sahəsi.Mən hərif deyiləm ki,sənin yazdıqların da adıma ola... Hər işi ehtiyatla görən adamam!..Heç arvadım da öz adıma deyl,davernusla almışam...

Qüdrət kişi bu həyasız məmura deməyə daha bir söz tapmadı. Heyrət dolu bir baxışla onu süzdü və sonsuz bir nifrətlə "Tfu!.."- deyib kabineti tərk etdi...

## YARIMÇIQ DƏFN

Musa müəllim ortaboylu,asta yerişli,ilk baxışda mülayimliyi və mehribanlığı ilə diqqəti cəlb edən bir adam idi.Amma onun içərisindən üzünə kimi olan məsafəni qət etmək elə də asan bir iş deyildi. Sanki bu məsafədə bir Bermud üçbucağı yerləşirdi.O nöqtəyə gəlib çatan hər kəsin fikri,xəyalı bicə anın içində yoxa çıxırdı... Sonra fikrindən,xəyalından bir iz də belə tapılmırdı...

Musa müəllim işlədiyi institutda bütün müəllimləri bir-birinə qırdırar,sonra da öyüdnəsihətlərilə girərdi araya:"Ay balam,heç ayıb deyilmi,bəs bu ziyalılıq harda qaldı?..Heç olmasa,şərəfli müəllim adına hörmətlə yanaşın!"

Amma elə ki, tutaşanların hər birini təklikdə çənəsinin altda salardı,başlayardı,hər birinə od vurmağa: "Qardaş,yaxşıca səbirin varmış, bu qədər haqsız iradlara dözdün!Sənin yerinə kim olsaydı indi öz prinsipi üçün canından da keçərdi..."

Musa müəllim ali dərəcəli bir araqarışdıran kimi rektorla prorektoru da üz-üzə gətirməyi bacarırdı.Sivişib rektorun qapısından içəri keçən kimi başlayardı: "Mənə çörək vermisiniz.Bunları sizə bildirməsəm o çörək məni tutar.Prorektor hazırlaşır sizin yerinizə keçməyə!" Girəvələyib prorektorun otağına girəndə isə valın tərs üzünü çevirərdi:"Qardaş,fil qulağında yatmısınız...Rektor bir yerdə ağzından qaçırıb ki,prorektoru başımdan ekəcəm.Özünüz də yaxşı bilirsiniz ki,o,çox qarayaxa adamdır...Bir yaxanıkı tanıdı,kor yapışdığından buraxmayan kimi əl çəkən deyil..."

İnstitut dəyirdi bir-birinə.Çəkişmələr,intriqalar baş alıb gedirdi.Musa müəllim toru hörümçək kimi elə ustalıqla hörürdü ki, başqa heç kəs onun əməllərindən baş açmırdı...Onun əməllərindən təkcə pektor şübhələnirdi...Ancaq onun da əlində bir tutalğac yox idi...

Günlərin birində Musa müəllim gözlənilmədən infarkt keçirdi və bununla da dünyasını dəyişdi.Prorektor dəfn komissiyasının sədri seçildi və Musa müəllim şərafətlə dəfn olundu.Həmin günlərdə rektor qısamüddətli məzuniyyətdə idi. O,məzuniyyətdən qayıtdıqdan bir neçə gün sonra elmi şuranın yiğincağı keçirildi.Bu yığıncaq da əvvəlkilər kimi səssiz-küysüz ötüşmədi...Yenə də dartışma,yenə də çaxnaşma,yenə də çarpışma...

İclasdan sonra rektor evə yornuq halda gəldi.O,tərəddüdlər içərisində qalmışdı.Axı Musa müəllim bir aydan artıq idi ki,dünyasını dəyişmişdi.Bəs görəsən institutda bu nığnığanı törədən indi kimdir belə!? Rektor elə bu düşüncələrin qoynunda da yuxuya getdi.Yuxuda gördü ki,iş başındadır.Köməkçisi içəri keçib bildirdi ki,Musa müəllim qəbulunuza gəlmək istəyir.

Rektor heç özündən asılı olmadan və fərqinə varmadan:"burax,qoy gəlsin" dedi.Musa müəllim içəri girərkən sanki rektor indi hiss etdi ki,bəs Musa müəllim bir aydan artıqdır ölüb,bu nə olan şeydir...

Musa müəllim salam verib rektorun qarşısında müntəzir dayandı.Rektor tərs-tərs onun üzünə baxıb dilləndi:

-Musa müəllim,siz ki bir aydan da artıqdır vəfat etmisiniz...

-Hörmətli rektor,bəs bilmirsiniz,mən özüm boyda da yerin altdayam!? Yerin üstdəki hissəmi dəfn elədilər...Mənim yerin altdakı hissəm qaldı.Özünüz də yaxşı bilirsiniz ki,dəfn komissiyasının sədri prorektorumuz idi.İndi ondan şikayətə gəlmişəm.Niyə məni yarımçıq dəfn etdirib?..

Rektor düyməni basıb prorektoru kabinetə çağırdı.Prorektor içəri girər-girməz rektor qəzəblə onun üstə çığırdı:-Sən necə dəfn komissiyasının sədri idin ki,Musa müəllim yarımçıq dəfn olunub!? Kişinin dəfninin ikinci hissəsini də təcili təşkil etməlisən!Mən də deyirəm ki,bu institutda nığnığa niyə hələ də kəsilməyib!..

Rektor yumruğunu stola möhkəm vurub,qəzəblə prorektorun üstə necə qışqırdısa, öz səsinə yuxudan oyandı və yerindən dik atıldı.Onun bədənindən ılıq tər axırdı.Cımcılıq suyun içində idi...

**2014**